**Müşviq İmamverdiyev,**
*ADA Univeristeti Kitabxanası, Tədqiqat və*
*Tədris üzrə bölmə rəhbəri*
*Kitabxana və İnformasiya Xidmətləri*
*mimamverdiyev@ada.edu.az*

# AZƏRBAYCANDA İNFORMASİYA MƏDƏNİYYƏTİNİN TƏDRİSİ: İLKİN TƏCRÜBƏLƏR VƏ NƏTİCƏLƏR

***Xülasə:*** *Məqalədə informasiya mədəniyyətinin tədrisininin əhəmiyyətindən, ölkəmizdə informasiya mədəniyyətinin inkişaf etdirilməsində tədrisin rolundan, Azərbaycanda göstərilən ilkin cəhdlər və onun növbəti inkişaf mərhələsi üçün yaratdığı zəmindən bəhs edilir. Məqalə eyni zamanda 2013-cü ildən ADA Universitetində ilk dəfə İnformasiya Mədəniyyətinin tədrisi proqramının həyata keçirdiyi təcrübi metodlardan, onun nəticələrindən və ölkəmizin gələcəkdə qlobal informasiya cəmiyyətinə sürətli inteqrasiyasına yaratdığı imkanlardan bəhs edir.*

***Açar sözlər:*** *İnformasiya mədəniyyəti; informasiya savadlılığı; ADA Universiteti Kitabxanası; rəqəmsal bərabərsizlik; kurrikulum*

***İnformasiya Mədəniyyətinin tədrisinin aktuallığı və vacibliyi***

21-ci əsin əvvəllərindən başlayaraq cəmiyyətimiz sürətli inkişaf yoluna qədəm qoymuşdur. Cəmiyyətimiz inkişaf edən texnologiya ilə paralel durmadan artan informasiyanı idarə etmək kimi böyük bir qayğı ilə qarşılaşmış və bu vəzifəni müvəffəqiyyətlə yerinə yetirmək üçün xüsusi bilik və bacarıqlara ehtiyac olduğunu tez bir zamanda dərk etməyə başlamışdır.

Məlumat üçün bildirməliyik ki, 1984-cü ildə ilk dəfə İnternet cəmiyyətə təqdim edildikdən sonra 1000-ə yaxın universitet və laborotoriyalarda istifadə olunmağa başladı. WhoIsHostingThis.com-dan alınan məlumata və The Incredible Growth of Web Usage infographic mənbəyinə əsasən istifadəçilərin sayının 50 milyona çatması 15 il çəkdi. 11 il sonra isə 2009 cu ildə dünyada 1 milyard İnternet istifadəçisi vardı. 3 il sonra isə bu rəqəm ikiqat artdı (2,1 milyard) və 2013-cü ildə artıq dünya əhalisinin 47%-i İnternetdən istifadə edirdi (2,7 milyarddan çox). Ancaq bu istifadəçilər dünyada bərabər paylanmamışdır. Yüksək sosial, iqtisadi və siyasi potensial imkanları olan ölkələr daha aktiv istifadəçilər olmuş və daha çox yararlanaraq "İnformasiya cəmiyyəti" adlanan bir anlayışı formalaşdırmışlar. İnformasiya cəmiyyəti iqtisadi və sosial cəmiyyətin vəhdətidir. Bu o de-

məkdir ki, insanlar informasiya cəmiyyətində məlumatları informasiyaya, informasiyanı isə elmə çevirirlər. Bu prosesdə onlar sanki xammalı-informasiyanı istehsal edərək əmtəə-elm formasında cəmiyyətə təqdim edirlər.

Speirzin araşdırmalarına əsasən, 90-cı illərdə Rəqəmsal bərabərsizlik (Digital divide), başqa sözlə informasiya fərqliliyi (Əliquliyev & Mahmudova, 2010, p.20) Şərq və Qərbi informasiya məkanında fərqləndirən ən böyük amillərdən idi (2002). Beynəlxalq Əmək Təşkilatının (ILO) 2001-ci il hesabatına əsasən, sənayeləşmiş ölkələrdə internet istifadəçiləri 90% və bunun 57% -ni təkcə Amerika və Kanada istifadəçiləri təşkil edirdi. Afrika və Yaxın Şərq istifadəçiləri 1%, Cənubi Asia isə 1%-dən az təşkil edirdi (Speirs, 2002, p.1). Göründüyü kimi, informasiyanın imkanlarından ***geniş*** və ***düzgün*** yararlanan sənayeləşmiş ölkələr artıq İnformasiya Cəmiyyətini yaratmışdır. Nəzərə alaraq informasiya mədəniyyəti insanların informasiyadan düzgün və əhatəli istifadə qaydalarına əsaslanır, buradan nəticəyə gəlirikki bu rəqəmsal bərabərsizlik uçurumunu aradan qaldırmaq üçün həm informasiya istehsalı, həm də onun istehlakını səmərəli həyata keçirmək üçün insanlar yüksək informasiya mədəniyyəti bacarıqlarına malik olmalıdır.

İnformasiya mədəniyyəti *“informasiyadan istifadə”* anlayışından daha üstün anlayış kimi dərk edilməli və tədris prosesinin məhz İnformasiya mədəniyyəti vərdişlərinin, başqa sözlə yüksək səviyyəli istifadə imkanlarının aşılanmasına yəni, informasiyadan səmərəli və keyfiyyətli istifadəyə yönəlmiş bir akt kimi qeyd edilməlidir.

Carey (1998) öz pedoqoji yanaşmasında informasiya mədəniyyətinin qavranılmasını xüsusi davamlı inkişaf xəritəsi üzərinə köçürərkən “informasiya mədəniyyətini” son hədd, ilkin mərhələsini “kitabxana bacarıqları” olaraq öyrənilməsini qeyd etmişdir.

**Carey: İnformasiya Mədəniyyəti Davamlılıq Xəritəsi**




İnsanlar resursların çeşidliliyindən xəbərsiz olanda, informasiyanın haradan axtaracaqlarını bilmədikdə kitabxana kataloqu və akademik resurs bazalarında tələbata uyğun və keyfiyyətli axtarış imkanlarına məhəl qoymadan Google –a müraciət edirlər. Bunun da mövcud təsdiqi olan Google Analytics-in hesablamalarına əsasən 2012-ci ildə Google hər dəqiqədə 2 milyon sorğu qəbul

etmişdirsə 2014-cü ildə bu rəqəm ikiqatına yüksəlmişdir. Hal-hazırda Google 2,4 milyard İnternet istifadəçisindən dəqiqədə 4 milyondan çox sorğu qəbul edir. Burada biz mövcud fakta birmənalı yanaşa bilmərik. İnformasiya tələbatının yüksəlişi və yaxud maraqların artması heç də insanların kifayət qədər informasiya əldə etmə bacarıqlarının ölçü vahidi ola bilməz. Müəyyənləşdirmək mümkün olsaydı maraqlı olardı ki, hər dəqiqədə ötürülən 4 milyon sorğunun nə qədəri faydalı informasiya ilə cavablandırılır?! Bu əlbəttə ki, Google-un axtarış və ya baza imkanlarından yox məhz tələbatçının informasiya savadlılığından asılıdır. İnternetdə, elektron kataloqda, məlumat bazalarında və axtarış qurğularında (search engine) informasiya axtarışı informasiyanın əldə olunması, təşkili, hüquqi və etik istifadəsini özündə birləşdirən informasiya mədəniyyətinin çox kiçik bir hissəsidir. İnformasiya tələbatçılarımız informasiyanın seçilməsi və qiymətləndirilməsi kimi bacarıqları öyrənməsələr qarşılarına çıxan ilkin məlumatları birbaşa və hətta istinad vermədən istifadə edəcəklər. Tələbələrin informasiya mədəniyyəti anlayışını başa düşən, istifadə edən və əks etdirən bacarıqlarının inkişaf etdirilməsi təşəbbüsü müəllim və kitabxanaçıların başlıca məqsədlərindən biridir (Imamverdiyev, 2014).

Müasir dövrdə İnformasiya mədəniyyəti insanların malik olmalari vacib olan əsas bacarıqlardan hesab edilir. Ona görə ki, tələbə, akademik heyət və geniş kütlənin araşdırmağa, seçməyə, qiymətləndirməyə və səmərəli istifadə etməyə başladığı sürətlə inkişaf edən texnologiya və durmadan artan mürəkkəb informasiyanın həcmi informasiya mədəniyyətini bugünün tələblərindən və təhsilin fundamental aspektlərindən biri olmasına zəmin yaradir (Imamverdiyev, 2014).

Bu gün informasiya cəmiyyətində, davamlı olaraq artan çap, elektron və müxtəlif formalı audio-vizual sənədlər səmərəli istifadə üçün təcrübəli və savadlı istifadəçilər tələb edir. Elektron cihazlardan, komputerdən istifadə etmək, informasiya mənbələrinə çıxış əldə etmək və s. bu kimi bacarıqlar səriştəli istifadəçiyə informasiyanın xarakterini müəyyənləşdirməyə, və onun elmi, sosial, mədəni və fəlsəfi dəyərini qiymətləndirməyə imkan verir. Bu bacarıqlar Zurkovski tərəfindən elmə gətirilmiş *“informasiya mədəniyyəti”* termini ilə ümumiləşdirilə bilər və onun əldə edilməsi və gücləndirilməsinə ehtiyac informasiya mədəniyyətinin tədrisinə şərait yaratmışdır.

İnformasiya Mədəniyyətinin Tədrisi proqramı Amerika Birləşmiş Ştatları, Avstraliya və Birləşmiş Krallıq kimi Qərb ölkələrinin universitet və kolleclərinin kitabxanaları tərəfindən geniş tətbiq olunur. Ali təhsil proqramında informasiya mədəniyyətinin tətbiqi- tələbatçıların informasiyanın əldə edilməsi və qiymətləndirilməsi metodologiyasına ehtiyacının ödənilməsini, məqalələrin yazılmasını, əqli mülkiyyət hüququnun qorunmasını həyata keçirir və eyni zamanda akademik proqramın inkişafına dəstək verir (Imamverdiyev, 2014).

Azərbaycanda da təhsil, tədqiqat və texnologiya akademik cəmiyyətin gündəlik işində mühüm yer tutduqca akademik kitabxanalar mühüm strateji əhəmiyyətə malik olmağa başlamışdır. Rəqəmsal texnologiya akademik kitabxanalarda xidmətin üsullarını və xidmətin keyfiyyətini dəyişmiş, informasiya mədəniyyətinin tədrisinin rolunu əhəmiyyətli dərəcədə artırmışdır (Imamverdiyev, 2014). Bu gün tələbatçılar müasir texnologiya və rəqəmsal mühitdə, global informasiya cəmiyyətində yaşadıqlarından informasiyanı tapmaq və əldə etmək, xüsusilə internetdən istifadə etmək bacarıqlarına malikdirlər. Lakin informasiyanı rahat tapmaq bacarığına malik olsalar da əldə etdikləri informasiya akademik məqsədlər üçün heç də hər zaman kifayət qədər səmərəli olmur. Hazırda tələbələr müasir təhsil çərçivəsində informasiya mədəniyyəti bacarıqlarının inkişaf etdirilməsini tələb edir. Təəssüf ki, təcrübəsiz istifadəçilər çoxdur və onların hər biri müasir təhsil sistemində qarşıya çıxa biləcək problemləri həll etmək üçün müəyyən informasiya mədəniyyəti bacarıqlarına malik olmağa ehtiyac duyurlar (Imamverdiyev, 2014).

***Kitabxanaçı və müəllim əməkdaşlığı***

İnformasiya mədəniyyəti proqramı müəllimlərə informasiya savadına malik tələbələr hazırlamaq üçün kitabxanaçılarla əməkdaşlıq etməyi tövsiyə edir. Müəllimlər və kitabxanaçılar arasında tərəfdaşlıq əlaqələrinin müəyyənləşdirilməsi keyfiyyətli əməkdaşlığı daha da gücləndirəcək. Bəzi müəllimlər hesab edirlər ki, onlar özləri özlərinin bu səriştəyə malik olub olmamasından asılı olmayaraq tələbələrə informasiya savadı verə bilərlər. Kitabxanaçılara görə isə informasiya mədəniyyətini kurrikuluma inteqrasiya etmək və tələbələri elmi əsaslı tədqiqat aparmağa və təcrübi bilik əldə etməyə istiqamətləndirmək, onların tənqidi düşüncə metodlarını həyata keçirmək, biliklərini daha da genişləndirmək, ancaq informasiya resurslarının əldə olunmasını öyrətmək kimi sadə təlimatdan, kortəbii təşkil olunmuş seminarlardan üstündür.

Akademik kontingentin informasiya savadlılığı anlayışı ilə yaxından tanış olmaması onların tələbələrinə, lazımı informasiyanın ötürülməsinə maneçilik törədir. Akademik kontingent və kitabxanaçılar arasında əməkdaşlığın olması vacibdir. İnformasiya mədəniyyətinin tədrisinin ən səmərəli yolu fənlərin tədrisi zamanı ***paralel öyrənmədir***. Yəni, dərs planları hazırlayarkən müəllimlər kitabxanaçı ilə birlikdə müzakirə apararaq kritik düşüncəni formalaşdırmağa yönəlmiş çalışmalara uyğun olaraq informasiya mədəniyyəti bacarıqlarını inkişaf etdirən bölmələr də daxil etməlidir. Bundan elavə, informasiya mədəniyyətini kurrikulumla əlaqələndirmək kifayət deyil, müəllimlər və kitabxanaçılar məlumat savadlılıq təlimatı modelini və həmçinin inteqrasiyanı gücləndirmək üçün əməkdaşlıq etməlidirlər.

Təsadüfi deyilki, informasiya mədəniyyətinin formalaşması problemini

tədqiq edərkən bu sahədə azərbaycanlı tədqiqatçı Abdullayeva da informasiya mədəniyyətinin formalaşmasında kitabxanaçılarla yanaşı müəllimllər, pedoqoqlar, təhsil işçilərinin də əhəmiyyətli rolunu xüsusilə diqqətə çatdırmışdır (2014, p.113).

***Azərbaycanda İnformasiya Mədəniyyətinin tədrisi – ADA Universitetinin təcrübəsi***

Bildiyimiz kimi, informasiya yaranandan informasiya mədəniyyəti formalaşmağa başlamışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra global informasiya məkanına inteqrasiya etməyə başlamış və informasiyanın təbliğini kitabxanalarda aparmağa başlamışdır. Sovet hakimiyyəti dağıldıqdan sonra yeni yaradılmış Təhsil qanunu kitabxanaçılarla müəllim və professor heyətini bir araya gətirə bilməsə də 2007-ci ildə təsdiq olunmuş "Azərbaycan Respublikasında Kitabxana – informasiya sahəsinin 2008–2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" əməkdaşlıq üçün yetərli bir stimul olmuşdur. Xüsusilə informasiya mədəniyyəti təhsilinin tədris proqramlarına elavə olunması ölkəmizdə bu sahəyə daha ciddi və akademik səviyyədə baxılması gərək olduğu mesajını vermişdir. Bu sahədə Kitabxanaçılıq – informasiya fakültəsində tezis və dissertasiya mövzularına yer verilmiş, seminarlar, konfranslar keçirilməyə, tədqiqatlar aparılmağa və yerli mühitdə informasiya mədəniyyətinin tədrisinin həyata keçirilməsi üçün müzakirələr aparılmağa, təlim və tədris proqramları hazırlanmağa başlanmışdır. Ölkəmizdə hər sahədə olduğu kimi bu sahədə də yüksək beynəlxalq standartlara müraciət olunmuş, Amerika Kollec və Tədqiqat Kitabxanaları Assosiasiyasının (ACRL) informasiya mədəniyyətinin 5 standartı, Britaniya Kollec, Milli və Universitet Kitabxanalarının (SCONUL) 7 qaydasından və Şimali Karolina Universitetinin kitabxanasının, Denver Universitetinin kitabxanasının, Sheffield Universiteti mütəxəssislərinin və s. təcrübələrindən istifadə olunmuşdur.

İnformasiya Mədəniyyəti Proqramının tədrisinin problemlər üzərində qurulması dünya təcrübəsidir və Qərb ölkələrində müvəffəqiyyətlə tətbiq olunur. Azərbaycanda mövcud prioritetləri nəzərə alaraq 2013-cü ildə ilk akademik kitabxana ADA Universitetinin kitabxanası informasiya mədəniyyətinin tədrisi təşəbbüsünü irəli sürüb və hal-hazırda özünəməxsus şəkildə inkişaf etdirir.

ADA Universitetinin Kitabxanası 4 fakültə və 2000-dən artıq İctimai və Beynəlxalq əlaqələr, Biznes, Humanitar və Sosial elmlər, İnformasiya Texnologiyaları, Təhsilin idarə olunması üzrə təhsil alan bakalavr və magistr tələbələri, eyni zamanda mübadilə proqramlarının tələbələri və tədqiqatçılar üçün informasiya xidməti göstərir. Fakültə üzvlərinin müşahidələrinə, kitabxana kollektivinin təcrübəsinə və onlayn kataloqdan istifadə üzrə aparılmış sorğuların nəticəsinə əsasən müəyyən olurki, ADA Universitetinin bakalavr dərəcəsində

oxuyan tələbələr informasiya tələbatlarının müəyyənləşdirilməsində, biblioqrafik istinadların mahiyyətinin anlamasında və hazırlanmasında, informasiyanın axtarılması və əldə olunmasında çətinlik çəkirlər. Bütün müşahidə və analizləri nəzərə alaraq deyə bilərik ki əsas problemləri tədqiqat apararkən informasiyanın axtarışı, əldə olunması və qiymətləndirilməsi kimi bacarıqların zəifliyindən əziyyət çəkməkləridir. Bu çətinliklər informasiya mədəniyyətinin tədrisi proqramından asılıdır və tələbələrin savadlılığı ilə xarakterizə olunur. Məqsəd də müəllimlərin gözü ilə tələbələrin istənilən elm sahəsi üzrə informasiya mədəniyyəti səriştəsini aşkara çıxarmaqdır.

ADA Kitabxanası tələbələrin mövcud problemlərini nəzərə alaraq Kitabxana informasiya savadsızlılığını aradan qaldırmaq üçün xüsusi tədris proqramı yaratmağı qarşısına məqsəd qoyur.

Tələbələrin mövzunu təsvir edərkən düzgün açar sözləri seçə bilmək bacarığının zəifliyi, kitabxana kataloqunda axtarış bacarığının olmaması, kitabxana materiallarının rəflərdə yerini tapmaq, münasib məlumat bazasını seçmək, axtarış nəticələrini səhv qiymətləndirmə və plaqiat kimi əhəmiyyətli problemləri onların informasiya savadlılığını gücləndirmək üçün xüsusi "İnformasiya Mədəniyyəti" proqramının tədrisi təşəbbüslərini zəruri edir.

ADA Universiteti Kitabxanası İnformasiya Mədəniyyətinin tədrisi proqramı çərçivəsində oriyentasiyalar, onlayn kataloq üzərində biblioqrafik təlimatlar, seminarlar, təcrübi məşğələlər təşkil edir. Bu təlimat və seminarlar təkcə tələbələrin informasiya tələblərini ödəmək üçün yox, kitabxananın strukturu, resurs bazası və təklif etdiyi xidmətlərlə yaxından tanış etməkdir. Məmmədovanın qeyd etdiyi kimi, İnformasiya mədəniyyətinin tədrisi ADA Universitetinin Kitabxanasının Tədqiqat və Tədris bölməsi mütəxəssisləri tərəfindən "*təhsil proqramlarına (bakalavr, magistr) uyğunlaşdırmaqla*" həyata keçirilir (2017, p.66).

İnformasiya Mədəniyyəti Programının tədrisinə başlanmasında ilk addım tələbələrin təlim formasını mükəmməlləşdirmək üzrə fakültə və kitabxana arasında əməkdaşlığın yaradılması olmuşdur. Müəllim və kitabxanaçılar informasiya savadlılığının rolunu artırmağa başlamış və elə bir mühit yaratmağa çalışmışlarki, tələbələr təkcə dərslərə hazılaşmaqla kifayətlənməmiş, hətta tədqiqat aparmaq bacarıqlarını genişləndirməyə və informasiya cəmiyyətinin mahiyyətini dərk etməyə başlamışlar. Bu sahədə fəaliyyət göstərən kitabxanaçı mütəxəssislər fakültə iclaslarında iştirak edərək müəllimlərin tədqiqat işi metodları ilə bağlı narahatlıqlarını dinləmiş, informasiya savadlılığının mahiyyəti; necə və nə üçün tədris olunacağı; kitabxananın rolu; və eləcə də tənqidi yanaşma bacarığının artırılması və bu bacarıqların müəllimlər tərəfindən qiymətləndirilməsinin vacibliyini izah etmişdir. Müzakirələrdə qərara alınmışdır ki, tələbələr üçün kitabxana ilə bağlı semestr ərzində bir neçə dəfə sınaq dərsi təşkil olunsun. İnformasiyanın əldə edilməsi və qiymətləndirilməsi bacarıqlarının əldə edəcəklə-

ri təqdirdə tələbələrin tədqiqat aparmaq bacarıqlarının inkişaf edəcəyini nəzərə alaraq fakültə və akademik rəhbərlik bu təşəbbüsə dəstək olmuşdur. Beləliklə, tələbələr üçün dərs təşkil olunmuşdur. Onların maraqlandığı “resursaları necə əldə edə bilərəm?’’ “Universitet ərazisindən kənarda onları əldə etmək mümkündürmü?” “məqalələrin akademik olub olmadığını necə müəyyən etmək olar?” kimi suallar bir daha aşkara çıxarmışdır ki, tələbələrin kitabxana resursları və xidməti haqqında əsaslı davamlı köməyə və dərin biliklərə ehtiyacları vardır. Bu sessiyalar müəllimlərin də işinə müsbət təsir etmiş və onlardan gələn rəylər də müsbət olmuşdur. Belə ki, kitabxana ilə bağlı sessiyadan sonra tələbələr artıq daha mükəmməl tədqiqat işləri təqdim etməyə başlamışlar. Bunun nəticəsində isə digər müəllimlər artıq kitabxanaçıları öz dərslərinə dəvət etməyə başlamışlar. Kitabxanaçı artıq fakültə üzvləri ilə intensiv görüşməyə və öz təlimatlarını tələblərə uyğun qurmağa davam edir.

Bu çox önəmlidir ki, tələbələr onlara kömək edəcək bir mutəxəssisin - kitabxanaçının olmasına inansınlar. Ona görə treyner kitabxanaçı həmişə tələbələrin nailiyyətlərini izləyir, maraq istiqamətlərini müəyyənləşdirir və lazım gələndə birbaşa kömək etməyə çalışır.

ADA Universitetində informasiya mədəniyyətinin tədrisi proqramının digər bir metodu isə kitabxanaçılar tələbələrlə ***təkbətək konsultasiyalarda*** görüşürlər. Belə görüşlər həm tələbə həm də kitabxanaçılar üçün əhəmiyyətli olur. Tələbələr dərs zamanı aydın olmayan mövzularla bağlı suallarını məlumat-sorğu üzrə kitabxanaçıdan fərdi görüşlərdə soruşa bilirlər. Kitabxanaçı digər bacarıqları müəyyən etmək üçün aldığı bütün sorğuları qeyd etdikcə suallar bir daha informasiya savadlılığı ilə bağlı 1-dən çox seminarların keçirilməsinin vacibliyini aşkara çıxarır və kitabxanaçının bu proqramı mükəmməlləşdirməsinə kömək edir. Kitabxanaçı tələbələr üçün istinad formatlarını öyrətməyi seminarlara əlavə etmək lazım gəldiyini alınan sorğulara əsasən müəyyən etmişdir. İnformasiya mədəniyyətinin tərkib hissəsi olaraq istinadlar və bibliqrafik siyahıların tərtibi xüsusi əhəmiyyətə malikdir.

Daimi olaraq informasiya mədəniyyətinin tədrisi proqramını inkişaf etdirmək məqsədilə müəllimlər ilə kitabxanaçılar daim müzakirələr üçün görüşürlər. Seminar və məşğələləri mükəmməlləşdirmək üçün kitabxanaçı aşağıdakı sualları qarşıya qoyur:

- Tələbələr məzun olanadək hansı bacarıqlara malik olmalıdır?
- Hansı formada çalışmalar tələbələrə bu bacarıqlara nail olmağa şərait yaradır?
- Bu bacarıqları qiymətləndirmə metodu necədir?

Məntiqi olaraq Kollec və Tədqiqat Kitabxanaları Assosiasiyasının (ACRL-in) informasiya mədəniyyəti standartı bu suallara cavab verir və onun həyata keçirmə metodunu təqdim edir. Müzakirələrdə məlum olurki, müəllimlər tələbələrin həm tədqiqat, həm də informasiyaya tənqidi yanaşma bacarıqlarının inkişaf

etməsini arzu edirlər. Onlar eyni zamanda tələbələrin müxtəlif mənbələrdən informasiyanın tapılması, faktların analiz və şərh edilməsi, nə vaxt və necə istinad edilməsi bacarıqları ilə bağlı narahatlıqlarını da əks etdirirlər. Buna görə də qərara alınmışdır ki, tapşırıqlar və onların qiymətləndirilməsi tələbələrin peşəkar və akademik bacarıqlarına əsasən təşkil olunacaq və qiymətləndiriləcək. Davamlı olaraq proqramın mükəmməlləşdirilməsi üçün yuxarı səviyyə ingilis dili hazırlıq tələbələri üçün xüsusu informasiyaya giriş layihəsi, magistr tələbələri üçün isə semestrdə 1 -2 dəfə xüsusi əhatəli seminarlar təşkil edilir.

**Nəticə**

İnformasiya mədəniyyətinin tədrisi proqramının ölkəmizdə informasiya mədəniyyətinin inkişafına böyük təsiri oldu:

- Müvəffəqiyyətlə tətbiq olunan bu proqram Kurrikulumda olan digər fənnlərin də zənginləşdirilməsinə dəstək verdi;
- ADA Universiteti Kitabxanası informasiya mədəniyyəti proqramını gələcəkdə fakültələrdə ixtisaslaşdırılmış fənn kimi inkişafı konsepsiyasını akademik cəmiyyətə təklif etdi;
- Tələbələr tədqiqat bacarıqlarını inkişaf etdirdilər. Onlar akademik mənbələri tapmaqla yanaşı, hətta bu kimi resursları əldə etməyi və istifadə etməyi öyrənməklə özlərinə inam əldə edərək innovativ ideyalarını reallaşdırmağa nail oldular;
- Gələcəyin mütəxəssisləri olan tələbələr artıq öz tədqiqat mövzularını seçə bilirlər və onlar hesab edirlər ki, bu nəinki onların tədqiqat mövzuları üçün maraqlı, hətta onların gələcək karyeraları üçün də yararlıdır. Onlar bunun dəyərini kitabxana seminarlarında və fərdi konsultasiyalarda anladılar;
- Fakültə özünün salahiyyətlərini yerinə yetirmiş olduğunu hiss etdi, çünki bir layihə ilə akademik ehtiyacları və dövrün tələblərini birləşdirə bilmişdi;
- Kitabxanaçı kitabxanaya və resurslarına qarşı yeni bir ruh yüksəkliyi gördü və daha çox işləmək üçün həvəsləndi. İnformasiya Mədəniyyəti dövrün tələbləri ilə səsləşəndə tələbələr başa düşürlərki kitabxana təlimatları onların akademik maraqların arxasındadır;
- Proqramın uğurlu olma səbəblərindən biri də iştrakçıların açıq fikrli və yeniliyə meylli olmaları, eləcə də fakültə və kitabxana arasında möhkəm əməkdaşlığın qurulması oldu.

ADA Universitetinin vəzifəsi ölkədə qarşıya qoyulan məqsədəuyğun informasiya məkanı yaratmaq və tələbələri bu informasiya məkanına inteqrasiya olunmasına şərait yaratmaq idi. İnformasiya Mədəniyyətinin Tədrisi proqramının ADA Universitetində başladılması Xəzər Universiteti, Qərb Universiteti və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, kütləvi kitabxanalardan isə Milli Kitabxana və Amerika Mərkəzinin nümunəsində ölkədə müxtəlif formalarda informasiya mədəniyyəti tədrisinin geniş vüsət almasına stimul verdi.